28-31 iyul 2022-ci il tarixlərində Bolqarıstanın Sofiya şəhərində yeniyetmə taekvondoçular arasında dünya birinciliyi keçirilib.

77 ölkədən 670-dən çox idmançının qatıldığı birincilikdə Azərbaycan yığma komandası 17 nəfər idmançı ilə mübarizə aparıb. Azərbaycan yığma komandasının tərkibində yarışa qatılan "Təhsil" Respublika İdman Mərkəzinin 6 nömrəli ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəbinin idmançıları Bahadur Dostəliyev (49 kq), Yunis Hüseynov (61 kq) və Sumqayıt şəhər 1 nömrəli ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman-şahmat məktəbinin idmançısı Fuad Məhərrəmli (45 kq) dünya birinciliyində III yeri tutaraq bürünc medal qazanıblar.

Qeyd edək ki, 2-7 avqust 2022-ci il tarixlərində həmin şəhərdə keçiriləcək gənclər arasında dünya birinciliyində ölkəmizi təmsil edəcək komandanın üzvlərindən 5 nəfəri Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq-gənclər idman-şahmat məktəblərinin idmançılarıdır.